

# "Qalmaqal"da itirənlər

**Bilmirəm necə qarşılanacaq fikirlərim, amma bir ziyalı, bir yazar kimi susmamağa üstünlük verdim. Bəri başdan deyirəm ki, Anarın "Bir qalmaqala sözardı" məqaləsini oxumuşdum, çox ciddi, ədəbi mentalitetimizi şərtləndirən bir faktlara cavabdır. Halbuki, on illərdir belə· qeyri-kişiyanadan uzaq söhbətlər çayxanalardan, badəxanalardan və aşxanalardan başlayıb mətbuat səhifələrində toxdayır. Bilirəm, bu yazımla bağlı nə qədər istəsən dodaq büzəcəklər, irad söyləyəcəklər və sairə. Bu baxımdan Özüm barədə qısa "arayış" verməli oldum:**

Bir yazar, bir alim olaraq ötən əsrin 70-ci illərindən ədəbiyyat aləmindəyəm, ədəbiyyatımızı ali təhsil.ocaqlarında tədris etmişəm, əsərlərim müntəzəm işıq üzü görür. Belə ki, 1991-ci ildən "Yuxuda dirilən adam", "Şeytanın intiharı", "Qapalı kitab", "Aytəkinin taleyi", "Naməlum qadına məktublar" romanlarım müxtəlif nəşriyyatlar tərəfindən normal tirajla çapdan çıxmışdır, eləcə də bir elmi - fantastik povestlər və iki hekayələr kitabım. Habelə S.Vurğun, Mir Cəlal, İ.Şıxlı, M.Araz, M.Yaqub, Oktay Rza, Adil Cəmilin və başqalarının yaradıcılığı haqqında iri həcmli monoqrafiyalarım nəşr olunmuş, mətbuatda ressenziyalarla təqdir edilmişdir. Bir alim kimi, müxtəlif janrlarda 50-dən artıq kitab qələmə almış, bu gün də mətbuatdayam. Şükürlər olsun ki, hələ Özüm yazıram!..

Yaddaşım çərçivəsində ötən əsrin 70-90-cı illərindən ədəbiyyatımızda baş verən proseslərin canlı şahidiyəm. Klassiklərimizin yaradıcılığını (S.Vurğun, Rəsul Rza, Mehdi Hüseyn, İ.Əfəndiyev, İsa Muğanlı, İ.Şıxlı və b.) həmişə təbliğ etmiş, onlara yönələn "solçu" hücumlarına yeri gələndə biganə qalmamışam. Dünyalarını dəyişmiş X.Əlimirzəyevin, Qulu Xəlilovun, Şamil Salmanovun, Bəkir Nəbiyevin, Əhəd Hüseynovun və başqalarının obyektiv (subyektivlik də yox deyildi) məqalələrini oxumuşam. Bu şəxsiyyətlərdə cəsarətlə üzbəüz söz demək, tənqid etmək hissiyyatları vardı. Təbii ki, əsas subyektləri o zaman üçün gənc olan. Anarın, Elçinin, Əlibala Hacızadənin, Çingiz Ələkbərzadənin, Qərib Mehdinin və digərlərinin nəsriydi. Çox qəribədir ki, bu ədəbi şəxsiyyətlərin sırasında daha çox Anarın povest və romanları hallanırdı; insafən, tam mənfiyə yox (Mən Anarın "Əlaqə" elmi-fantastik povesti haqqında "Ədəbiyyat və incəsənət" qəzetində geniş məqalə ilə çıxış etmişəm)... "Tənqid" məfhumu ədəbiyyatşünaslığın bir qoludur, "tənqidetmə" isə şikəst əlidir, barmaqlar yaxşı işləmir,. "sola" gedir. Tənqid dünya ədəbiyyatında əsrlərlə mövcuddur. Şekspir, Bayron, Cek London, F.Dostoyevski, L.Tolstoy, İ.-Kuprin, İ.Turgenev də hədəf olmuşdur elə öz zamanında, subyektivlik yox deyildi, lakin bir obyektiv meyar da vardı. V.Belinski, Çernışevski, Dobrolyubov kimi görkəmli şəxsiyyətlər heç vaxt şəxsi-qəzərlik mövqeyi tutmamışlar, yaxşıya - yaxşı demişlər. V.Belinski dahi Puşkini, istedadlı Lermantovu kəskin tənqid edirdi və Puşkin haqqında ən gözəl məqaləsini yazırdı, bununla vicdanı sakitləşirdi. Bizim ədəbi tənqidimiz necə yol tutub: Bir qrupu yalnız tərif yazmaqla məşğuldur, digər dəstə vezifəlini tənqid etməkdən zövq alır (onunla yüksəlmək üçün şans qazanmaq arzusundadır), üçüncü qaragurh isə dünyalarını dəyişmiş şairlərin, yazıçıların ruhunu narahat etmək missiyasını ödəmək "layihələri" üzərində baş (əgər varsa) sındırırlar. Bu yanaşma ən çox S.Vurğun və R.Rzanın payına düşmüşdür. Məsələ bundadır 20-30 ildir şeir aləmindədir və üç şeiri, yoxdur, ortada Səməd Vurğunu, Rəsul Rzanı, S.Rüstəmi, Məmməd Rahimi bəyənmir, siyasətin quyruğuna bağlayırlar. Əvvəl özünü sənətdə təsdiq elə, sonra nəsə de, amma kişi kimi!



**Allahverdi Eminov**
***Azərbaycan Yazıçılar Birliyinin üzvü, Dosent, Yazıçı, Prezident mükafatçısı***

Son 25-30 ildə, hansı ki, Anar müəllim Yazıçılar Birliyinin sədridir, "tənqidçiləri" ilbəil çoxalır, sağdan-soldan hücumlar edirlər. Atalar burda deyiblər ki, çox yeyənin olsun, çox deyənin olmasın!

Tənqid yazanlar və gileylənənlər əsassız olaraq iddialar irəli sürürlər. Axı, hər şey birinci şəxsdən asılı olmur, "aşağıda" yazırsan, "yuxarıda" pozurlar, özü də qəribə metodla: dovşana qaç deyirlər... tut əmri verirlər. Mən on beş ildən artıq yaradıcı - tədris sahəsində I və II şəxs işləmişəm və nüfuzumu qazanmışam...

Mən həmişə o məqamdan gileylənmiş və yazmışam ki, vəzifəlilərin qəbuluna düşmək zülmdür, təəssüf ki, bu gün çiçəklənmişdir. Hər şey bu meyardan başlayır: ay filankəs, vətəndaşı qəbul elə, beş-on dəqiqə söhbət elə, məsələni yoluna qoy, həm də o adamın səviyyəsindən hali ol! Bu hüququ pozurlar, nəticədə şikayətlər baş alıb gedir, bu isə dövlətçiliyimizə kölgə salır, niyə gileylənməməliyik?

Anar müəllim həmin karyeristlərdən, süründürməçilərdən... fərqli olaraq böyük ədibdir, dramaturqdur, ssenaristdir, dünya ədəbi mühitdə tanınan şəxsiyyətdir, Azərbaycanın təəssübünü yaşayan İnsandır, nəhayət, görkəmli şairlərin oğludur. Bəli, həmin dilavər (!) vəzifəlilərdən tamamilə seçilən şəxsdir, qapısı isə açıqdır. Mən bunun şahidiyəm. Özümlə bağlı faktla fikrimi tamamlayacağam.

> Yaddaşım çərçivəsində ötən əsrin 70-90-cı illərindən ədəbiyyatımızda baş verən proseslərin canlı şahidiyəm. Klassiklərimizin yaradıcılığını (S.Vurğun, Rəsul Rza, Mehdi Hüseyn, İ.Əfəndiyev, İsa Muğanlı, İ.Şıxlı və b.) həmişə təbliğ etmiş, onlara yönələn "solçu" hücumlarına yeri gələndə biganə qalmamışam. Dünyalarını dəyişmiş X.Əlimirzəyevin, Qulu Xəlilovun, Şamil Salmanovun, Bəkir Nəbiyevin, Əhəd Hüseynovun və başqalarının obyektiv (subyektivlik də yox deyildi) məqalələrini oxumuşam...

Mən 2016-cı ilin son aylarında səsimlə bağlı İstanbulda müalicə olundum və 2017-ci ildə geri döndüm. İşsizlik də bir tərəfdən durumumda öz işini görürdü. Yazıçılar Birliyinin üzvü kimi Anar müəllimə rəsmi ərizə ilə (poçtla) müraciət etdim və çox keçmədən imzası ilə cavab aldım. Ərizəmdə göstərmişdim ki, uzun vaxtdır üzvülük haqqını ödəyə bilmirəm, maddi vəziyyətim elə də ürəkaçan deyil. Məni İttifaqdan azad edin, imkan müqabilində Prezident mükafatı almağımda yardımçı olun. Yazıçılar Birliyindən mənə Anar müəllimin müşaviri Rauf bəy zəng etdi, onunla görüşməyimi təklif etdi. Səhərisi Rauf bəylə birbaşa tanış oldum, ilk (və indi də) təəssüratımda əsl ziyalı, humanist, canıyanan şəxsiyyət olaraq qaldı.

- Ərizənizlə bağlı dəvət etmişəm, - dedi. - Anar müəllim cavab da göndərmişdir, yəqin ki, almısız.

- Bəli, - dedim. - Amma elə bilirdim cavabsız qalacaq. Bunu bir sıra rəsmi məmurların münasibətində yaşamışam. Məni qınamazsız yəqin ki.

Rauf bəy gülümsündü:

- Anar müəllim nə yazırsa arxasında dayanır. İstərdim gəlmişkən görüşəsiz. Anar müəllim kabinetindədir.

- Mənə məktubunda da yazıb.

Görüşdüm. Son dərəcə təvazökar, qayğıkeş Anar müəllim: hal-əhvalımı soruşdu və bildirdi ki, İttifaqdan çıxmağı unut, tapşırıq vermişəm bu barədə. Mükafat məsələsindən Raufun xəbəri var.

Vaxtını çox almadım.

Bir neçə gündən sonra şəxsiyyətinə və poeziyasına hörmətlə yanaşdığım Rəşad Məcidlə görüşdüm, onun da məktubumdan xəbərdar olduğunu hiss elədim.

- Allahverdi müəllim, hər şey yerinə düşəcək, ruhdan düşmə, yaradıcılığından qalma. - Bu, təsəllidən əlavə mənə olan diqqət idi. Anar müəllimin ətrafında çalışan tanıdığım şəxsiyyətlərin insanpərvərliyi idi...

Sədr üçün daha nəyi, hansı tərzdə giley-güzarı, "qalmaqalı" ünvanlamaq lazımdır? Biz bir budaqda oturub min budağı nə vaxta qədər silkələyəcəyik? O şəxslər ki, ədəbiyyata dəxli yoxdur, beləleri yüksək iddiaya düşürlər. Cəmiyyətin - insanlığın faciəsi buradan başlayır.

Fikrimi yazıçı Valter Skotun sözlərilə bitirmək istərdim: "Əzizim, yaxşı insan ol, fəzilətli insan ol! Yatağa düşdüyün zaman bundan artıq heç bir şey sənə təsəlli verməyəcəkdir".

***Redaksiyadan: Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.***